

# AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM SƏNAYESİ ÜÇÜN KADR HAZIRLIĞI PROBLEMLƏRİ

Məhz görülən işlərin nəticəsidir ki, ölkəyə gələn xarici turistlərin sayı ildən-ilə artmaqdadır. Ölkə turizminin sürətli inkişafı yeni-yeni mehmanxanaların, müxtəlif regionlarda turizm mərkəzlərinin açılmasına, çoxlu sayda turizm firmalarının fəaliyyətə başlamasına səbəb olmuş, yeni iş yerləri yaradılmışdır. Bütün müsbət keyfiyyətləri ilə yanaşı bu inkişaf nəticəsində turizm sənayesinə heç bir peşəkar hazırlıq keçməyənlərin axını başlamışdır.

Bu şəraitdə sürətlə inkişaf edən turizm sənayesi üçün kadr hazırlanması və turizmdə çalışan kadrların ixtisaslarının artırılması günün başlıca məsələsinə çevrilmişdir.

Mütəxəssislər "turizm" anlayışına müxtəlif istiqamətlərdən yanaşdıqları üçün onu müxtəlif formada şərh edirlər. Biz "turizm" anlayışına aşağıdakı nəzər-nöqtəsindən baxırıq: "Turizm daimi yaşadığı yerdən kənarda insan davranışının xüsusiyyətini əks edən elmi biliklər sahəsi kimi; turizm insanın regional və milli ənənələr əsasında, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğun hərtərəfli inkişafını təmin edən özünəməxsus maarifləndirici məkan kimi; turizm - turizm ictimaiyyətinin sosial-mədəni, təhsil, iqtisadi, ekoloji və fiziki çevrəsinə həm insanın, həm də sənayenin interaktiv təsir kompleksi kimi".

Hazırda Azərbaycan Respublikasının bir sıra ali və orta ixtisas məktəblərində: - Bakı Dövlət Universitetində, Qərb Universitetində, Azərbaycan İqtisadiyyat Universitetində, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində, Azərbaycan Kooperasiya Universitetində, Azərbaycan Beynəlxalq Universitetində, Naxçıvan Dövlət Universitetində, Gəncə Texnologiya Universitetində, Mingəçevir Turizm Kollecində, Beynəlxalq Kollecdə, Bakı Biznes Kollecində və digər ali və orta ixtisas məktəblərində turizm sənayesi üçün kadrlar hazırlanır. Sevindirici haldır ki, ölkə Prezidenti İlham Əliyev cənabları kadr hazırlığının artırılması məqsədilə 2005-ci ilin avqust ayında Turizm institutunun yaradılması barədə sərəncam imzalamışdır. Bütün bunlar müsbət haldır. Məsələnin mənfi cəhəti ondan ibarətdir ki, mövcud təhsil müəssisələrindəki tədris proqramları günün tələbləri səviyyəsində deyil, çünki konkret olaraq hansı peşələr üzrə kadrların hazırlanması məqsədi müəyyənləşməmişdir.

Dünyanın qabaqcıl turizm məktəblərinin mütəxəssis hazırlığı təcrübəsinin tədqiqi, onların tədris proqramlarının və əsas təlim modellərinin öyrənilməsi göstərir ki, bu təcrübədən ölkəmizdə istifadə etmək mümkündür və lazımdır.

Böyük Britaniyadakı Kornuoll kolleci turizmin müxtəlif istiqamətləri üzrə - ekskursiya bələdçiləri, turizm agentliyi mütəxəssisləri, səyahət və turizm sənayesi işçiləri hazırlayır və bu istiqamətlərin hər biri üçün ayrıca proqramlar mövcuddur. Məsələn, ekskursiya bələdçilərinin hazırlığı proqramı təhsilin iki səviyyəsini nəzərdə tutur. "NVQ 3 - şifahi tərcümə və bələdçilər üçün izah" adlanan birinci səviyyənin proqramı üçüncü dərəcəli ekskursiya bələdçiləri hazırlayır. Bu blok ekskursiya, xüsusilə piyada ekskursiyalar aparmaq istəyənlər üçün nəzərdə tutulmuşdur. Tədris kursu həftədə 3-6 saat olmaqla 30 həftə davam edir və kursa yaşı 16-dan yuxarı, peşəkar bələdçi olmaq istəyən gənclər qəbul edilir. Kursun tədris planı üç vəzifəni həyata keçirir: ekskursiya aparmağın, məlumat çantasının hazırlanması, qazanılan təcrübənin qiymətləndirilməsi qaydalarının öyrədilməsi. Təlimin müəyyən hissəsi auditoriyada mühazirələr, bir hissəsi müəllimin rəhbərliyi ilə müstəqil iş, bir hissə isə maraqlı yerlərə piyada ekskursiyaların təşkilindən ibarət olan 3 bərabər hissəyə bölünür.

"NVQ 4 - göy nişanlı bələdçi" - dördüncü dərəcəli ekskursiya bələdçisi hazırlayan ikinci səviyyəli blok turizmin və Kornuollda ekskursiya aparmağın öyrənilməsini nəzərdə tutur. Abituriyentlər ümumi təhsilə, gözəgəlimli görkəmə, Kornuoll barədə bilgilərə, müştərilərin ehtiyaclarına qayğı təcrübəsinə və xarici dillərdən bir neçəsinə malik olmalıdırlar. Tədris planı 18 ay üçün nəzərdə tutulmuşdur. Tələbələr üç əsas fənn öyrənirlər: Ölkə və Kornuoll haqqında məlumat; Ekskursiya aparmağın metodikası. Dərslər gündüz və axşam saatlarında keçirilməklə praktiki məşğələləri də -avtobusla ekskursiyalar, piyada ekskursiyalar, diqqətəlayiq yerlərə gedişi əhatə edir. Tələbələr kursu imtahanla başa vururlar.

Səyahət və turizm sahəsində Kornuoll kollecinin altı proqramı vardır:

· ABTA: turagent sertifikatı.

· Qalileo və Seybr bron sistemləri.



***Azərbaycan Respublikasında aparılan uğurlu iqtisadi islahatlar nəticəsində 1996-cı ildən başlayaraq ölkə iqtisadiyyatında əsas makroiqtisadi göstəricilər sürətlə artmaqdadır. İqtisadiyyatımızın bütün sahələrində olduğu kimi, turizm sənayesində də sürətli inkişaf göz önündədir. Məlumdur ki, bu inkişafın əsası ümummilli liderimiz Heydər Əliyev cənablarının təşəbbüsü ilə 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununun qəbulu ilə qoyulmuşdur. 2002-ci ilin avqustunda təsdiq olunmuş "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə Turizmin inkişafına dair" Dövlət Proqramı ilə bu inkişaf sürətlənmiş, ölkə Prezidenti İlham Əliyev cənablarının 2004-cü ilin fevralında təsdiq etdiyi "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər)" Dövlət Proqramı ilə güclü təkan almışdır.***

· Aviatarif və biletlər.

· İkinci dərəcəli Milli təsnifat pilləsi - səyahətlərin təşkili.

· Üçüncü dərəcəli Milli təsnifat pilləsi - səyahətlərin təşkili.

· Turizm və səyahətlər sahəsində Milli diplom.

Böyük Britaniyadakı Bornmut Universiteti də mehmanxana və turizm menecmenti üzrə yüksək kadr hazırlığı ilə məşhurdur. Tərkibində yeddi akademik məktəb vardır. Təhsil zamanı tələbələr intellektual, praktiki və peşəkar bacarıqlarını inkişaf etdirməklə "real dünyada real təcrübə" əldə edirlər. Belələrinə problemi həll etmək və qərar qəbul etmək, sahibkarlıq, komandada işləmək bacarığı, kompyüterlə işləmək, biznesin əsasları barədə bilgilər və s. nümunə göstərmək mümkündür. Bu keyfiyyətlərin vəhdəti iş bazarında çox yüksək qiymətləndirilir. Universitetdə müxtəlif pilləli proqramlar mövcuddur və müəllimlərin demək olar ki, hamısı "ön cəbhədən", yəni bilavasitə turizm sənayesindən gəlmələrdir. Universitet diplom və müvafiq dərəcə verməklə aşağıdakı tədris planlarını təklif edir:

· Ali Milli kurslar. Bu zaman məzunlara Ali Milli sertifikat və Ali Milli diplom verilir.

· Birinci dərəcə.

· Diplomdan sonrakı kurs və magistr dərəcəsi almaq üçün kurs.

· Elmi əsərlərin sayına görə dərəcə.

Kiçik ölkə olmasına baxmayaraq İsveçrə onlarla mehmanxana və turizm menecmenti məktəblərinə malikdir. Dünya mehmanxana təsərrüfatında çalışan top-menecerlərin əksəriyyəti İsveçrə məktəblərinin məzunlarıdır. 100 il əvvəl ilk mehmanxana menecmenti məktəbi - The Ecole Hötelieze de Lausanne (EHL) İsveçrədə (Lozanna şəhərində) yaranmışdır. Məktəb bütün dünyada məşhurdur və qabaqcıl məktəb kimi qəbul edilir. Məktəbin məqsədi dünyanın qabaqcıl otellərində və restoranlarında vəzifə pilləsinin zirvəsinə can atan tələbələrə təhsil verməkdir. Tədris prosesi zamanı tələbələrə liderlik və komandada işləmək bacarığı aşılanır. Məktəbin tələbələri dünyanın qabaqcıl mehmanxanalarında istehsalat təcrübəsi keçirlər. Lozanna məktəbində tələbələrin ixtisasa olan tələbatını təmin etmək məqsədilə iki müstəqil akademik proqram hazırlanmışdır. The International Hospitality Management Proqramme - Qonaqpərvərliyin Beynəlxalq İdarəçiliyi Proqramı bakalavr dərəcəsi verməklə 7 semestr üçün nəzərdə tutulmuşdur. 6 semestr auditoriya dərsləri və 1 semestr istehsalat təcrübəsi.

Tələbələr marketinq və turizm, iqtisadiyyat və hüquq, maliyyə, humanitar ehtiyatlar, texniki bazanın idarə olunması, yerləşmə menecmenti, informasiya texnologiyaları, dillər və ünsiyyət, mədəniyyət və tətbiqi incəsənət, strateji menecment və s. fənləri öyrənirlər.

Əgər tələbə mehmanxananın funksional bölməsinin rəhbəri olmaq arzusundadırsa o, Management of Hotel Operations - Mehmanxana Əməliyyatlarının idarəedilməsi kursunu bitirməlidir. Bu kurs 18 ay olmaqla 3 semestri əhatə edir.

ABŞ-da turizm sənayesi üçün kadr hazırlığı Amerika turizm agentlikləri cəmiyyətinin (ASTA) rəhbərliyi ilə həyata keçirilir. Rod-Aylend ştatındakı Conson və Uels Universiteti menecment üzrə peşəkar kadr hazırlığın 18 proqramını təklif edir. "Mehmanxana əməliyyatları və menecment" proqramında aşağıdakı fənlər öyrənilir.

· Mehmanxana biznes müəssisəsi kimi;

· Mehmanxana xidmətləri və yerləşmə bazarı;

· Mehmanxana marketinqi;

· Mehmanxananın qəbul xidməti;

· Mehmanxana nömrələri;

· Mehmanxanada qidalanmanın təşkili;

· Mehmanxana restoranlarının tipləri;

· Nömrələrdə xidmət;

· Mühasibat və maliyyə uçotu;

· Sahibkarlıq fəaliyyətinin növləri.

Amerikadakı peşəkar turizm təhsili təcrübəsini öyrənərkən müxtəlif proqramlar:

a) bilavasitə turizm agentliklərində; b) ikillik kollecləridə və dördillik universitetlərdə; c) istehsalatdan ayrılmadan qiyabi təhsil - vasitəsilə turizm sənayesi ilə sıx bağlılığı və işçilərin peşəkarlığına mütləq tələbin olduğunu qeyd etməliyik.

Qeyd etməliyik ki, kadrların peşəkar təhsilinə olan tələblər Amerika Turagentlər Cəmiyyətinin Etik Kodeksindən irəli gəlir.

Amerika təcrübəsinin ikinci özəlliyi turizm sənayesi üçün personal və mütəxəssis hazırlığında mütləq proqramatizmin olmasıdır. Məzunlardan coğrafiya və turizmin tex-

nologiyasını, şəxsiyyətlərarası münasibət və ünsiyyət qurmaq bacarığı, dünya tarixini və kompyüterlərlə işləmək vərdişi tələb edilir.

Əsasında səyahət edənlərin ehtiyac və tələbatlarının ödənilməsi üçün təhsil və peşəkar hazırlığın dayandığı üçüncü şəxsiyyət dünya turizm bazarında hakim mövqe tutmaq, qlobal turizm biznesinin nəzarət paketini ələ keçirmək, transmilli şirkətlərə, mehmanxana və turoperatorlar şəbəkəsinə sahib olmaq üçün panamerikalı cəhdləri ilə izah edilir.



Fransada kadr hazırlığı ilə aparıcı rol nəhəng transmilli turizm - mehmanxana konserni olan ACCOR-a məxsusdur. Beynəlxalq qrup olan ACCOR dünyanın 140 ölkəsində təmsil olunur və 125000-dən çox əməkdaşı vardır. Yarandığı ilk günlərdən konsern öz əməkdaşlarının peşəkar hazırlığına xüsusi diqqət yetirir. Bu məqsədlə müxtəlif təlim kursları yaradılmış və əməkdaşların vəzifə pillələrində yüksəlməsi üçün onların innovasiyaları öyrənməsi təşkil edilmişdir. Hər il konsern öz işçilərinə 20000 boş ştat barədə elanlar verir.

ACCOR-un personalı üçün aşağıdakı keyfiyyətlər tələb edilir: çətin problemlərdən ən mühümünü görə bilmək bacarığı, diplomat olmaq, məqsədyönlülük, inadkarlıq, fədakarlıq, düzgün qərar qəbul edə bilmək, iki əcnəbi dil bilmək, müstəqillik və özünü çətin, eyni zamanda maraqlı fəaliyyətə həsr etmək arzusu.

Konsernin ixtiyarında ACCOR-un həmtəsisçiləri Paul Dubrule və Gerard Pelisson tərəfindən yaradılmış Universitet - academie ACCOR vardır. Akademiya Avropada turizm sənayesi ilə bağlı olan ilk korporativ Universitetə çevrilmişdir. 1985-ci ildən indiyə kimi burada 190000 mindən çox mütəxəssis hazırlanmışdır.

Mehmanxana menecmenti üzrə fransız metodikası. həmçinin universitet şəhəri olan Nevsateldəki Mehmanxana Menecmenti Məktəbində (İHTTİ) tam həyata keçirilir. Məktəb Fransa, İsveçrə və bir sıra beynəlxalq mehmanxana və turizm assosiyasiyalarının üzvüdür.

Məktəbin üç illik kursunu bitirənlərə Qonaqpərvərliyin və Turizmin idarə olunması sahəsində incəsənət bakalavr dərəcəsi və "Mehmanxanaların idarəedilməsi" ixtisası üzrə diplom verilir. Məktəbin məzunu yenidən bir il təhsil ala bilər, kurs bitdikdən sonra ona "Mehmanxanaların fəaliyyəti" ixtisası üzrə diplom verilir. Məktəbdə kurs 4 moduldan ibarətdir.

Təhsilin birinci ilini CM1 Modulu - İctimai iaşənin təşkilinin idarə edilməsi təşkil edir. Bu modula 23 həftəlik istehsalat təcrübəsi daxildir. Kurs başa çatdıqdan sonra modul üzrə sertifikat verilir.

Təmas xidmətləri və xadimə xidmətinin idarə edilməsi adlanan FH1 Modulu ikinci təhsil ilində öyrənilir. Bu modul da 23 həftəlik istehsalat təcrübəsi nəzərdə tutur.

Tədris ilinin üçüncü ilinin birinci yarısını BA1 Modulu (Biznes-idarəçilik) əhatə edir. Bu tədris ilinin ikinci hissəsini isə BA2 adlı dördüncü modul təşkil edir. Beləliklə, ixtisas və diplom almaq üçün üç modul CM1, FM1 və BA1 kifayət edir.

İHTTİ məktəbində "Vəzifələr və növbətçilik konsepsiyası" mövcuddur. Konsepsiyaya uyğun olaraq hər bir tələbə növbətçilik qaydası ilə bir həftəlik məktəbin aşbazına, ofisiantına, xadiməsinə, katibinə və ya inzibatçısına çevrilir. Bu tələbənin hansı kursda və ixtisasda olmasından asılıdır. Məsələn, I kurs tələbəsi elanlar lövhəsində adının yazıldığı və sabah bütün məktəb üçün səhər yeməyi hazırlamaq göstərişi tapır.

Məktəbdə təlim çox intensivdir. Tələbələr mehmanxana və turizm biznesində gərgin iş rejimində işləməyə hazırlanır. Həftədə 40 saat olan tədris proqramı yemək hazırlanması və masanın servirovkasından başlamış mehmanxana sənayesində müasir informasiya texnologiyalarına kimi nəzəri və təcrübi bilgiləri özündə əks etdirir. Tələbələr mehmanxananın işi barədə hər şeyi bilməli və onu təcrübədə tətbiq etməyi öyrənməlidir.

Bundan əlavə universitet şəhəri olan Nevşateldə mehmanxana menecmenti məktəbi fəaliyyət göstərir. Məktəbin üç illik kursunu bitirənlərə Qonaqpərvərliyin və turizmin idarə olunması sahəsində incəsənət bakalavrı dərəcəsi və "Mehmanxanaların idarəedilməsi" ixtisası üzrə diplom verilir.

Rusiya Federasiyasında turizm sənayesi üçün kadr hazırlığı dörd səviyyəli sistemlə həyata keçirilir. Birinci səviyyə orta məktəb bazasının 8-11-ci sinif şagirdlərini əhatə edir. Şagirdlər litseylərdə (Litsey siniflərində) ümumi təhsil fənləri ilə yanaşı idman-sağlamlıq və mədəni turizmə dair xüsusi fənlər öyrənirlər. Məzunlara müxtəlif idman dərəcələri, "Turizm təlimatçısı" vəsiqəsi və turizm adyunktu dərəcəsi verilir.

İkinci səviyyə peşə məktəblərində (I pillə), texnikum və kolleclərdə (II pillə) həyata keçirilir ki, buraya adətən peşə təhsilini davam etdirmək, turizm yönümlü ixtisas qazanmaq istəyən Litsey məzunları daxil olurlar. Faktiki olaraq bu turizm adyunktu və bakalavr (I pillə) almağa imkan verən orta ixtisas təhsili sistemidir.

Üçüncü səviyyə ali təhsil sistemidir. Ali məktəblərin proqramlarına uyğun olaraq ixtisas təhsilinin III və IV pillələri həyata keçirilir.

Diplomdan sonrakı təhsil ixtisas təhsilinin dördüncü



səviyyəsini təşkil edir. Beləliklə Rusiya Federasiyasında çoxsəviyyəli və fasiləsiz təhsil: məktəb-litsey - peşə məktəbi - kollec -ali məktəb - ixtisasın artırılması və ikinci təhsil alınması sistemi vasitəsilə turizm sənayesinin peşəkar kadrlara olan tələbatı ödənilir. Yeri gəlmişkən kadr hazırlığı işində Rusiya Beynəlxalq Turizm Akademiyasının fəaliyyəti xüsusi qeyd olunmalıdır. Hələ sovet dövründə İxtisas artırma və Təkmilləşdirmə İnstitutu kimi fəaliyyət göstərən bu təhsil ocağı 1991-ci ilin yayında Turizm İnstitutuna, 1993-cü ilin sentyabrından isə Rusiya Beynəlxalq Turizm Akademiyasına çevrilmişdir. Hazırda Akademiya Turizm üzrə bir sıra regional təhsil müəssisələrini birləşdirən elmi-tədris-metodiki mərkəz kimi fəaliyyət göstərir. Burada həmçinin ixtisaslaşmış müdafiə şurası fəaliyyət göstərir. Akademiyanın ixtisaslaşmış şurasında indiyə kimi turizm sənayesinin müxtəlif aspektlərini əhatə edən bir sıra namizədlik dissertasiyaları müdafiə edilmişdir.



Qardaş Türkiyə Respublikasında da turizm sənayesi üçün kadr hazırlayan ixtisaslaşmış məktəblər fəaliyyət göstərir. Onların içərisində Boğaziçi Universiteti xüsusi ilə qeyd olunmalıdır. Bu Universitetdə Ümumdünya Turizm Təşkilatının (ÜTT) tədris mərkəzi yaradılmışdır.

Xarici ölkələrdəki iri turizm məktəblərinin təcrübəsinin öyrənilməsi turizm sənayesi üçün mütəxəssis hazırlığının sistem və keyfiyyətinə cəmiyyətin, eləcə də turizm ictimaiyyətinin baxışlarının dəyişməsini üzə çıxardı. Turizm və qonaqpərvərlik sahəsində xidmətlərin dünya tələblərinə cavab verən peşə standartları formalaşmağa başlamışdır.

Xarici müəlliflər qeyd edirlər ki, turizm işçilərinin böyük hissəsi müştərilərlə dolayısı ilə təmasda olur və müştəri bir çox mütəxəssisin səy və əməyini görə və hiss edə bilir. Buna görə də bütün sənaye üçün uğur gətirən işlərin keyfiyyətinə tələb artır. Xarici təhsil modelləri turizmin bu özəlliyini nəzərə alır və tələbələrin peşəkar hazırlığını ilk səviyyədən - mütəxəssislərin vərdiş və bacarıqlarından başlayırlar.

Xarici müəlliflər hesab edirlər ki, turizmin sürətli inkişafı ikinci və üçüncü səviyyəli peşəkar kadrlardan: turoperatorlardan, satış agentlərindən, turagentlərindən, bələdçi-tərcüməçilərdən, marketoloqlardan, animatorlardan, turizm üzrə məsləhətçilərdən, psixoloqlardan, reklam mütəxəssislərindən və başqalarından asılıdır.

Bütün sadalananlara əsaslanaraq ölkəmizdə turizm sənayesi üçün yüksək səviyyəli kadrların hazırlanması məqsədilə təklif edirik:

1. Ali məktəblərdə bakalavr pilləsi üzrə "Turizm və səyahətlərin menecmenti", "Qonaqpərvərliyin menecmenti", "Turizmdə ekoloji menecment", "İdman turizminin menecmenti", "Ekskursiya menecmenti", "Turizm texnologiyalarının menecmenti", "Turizmdə təhlükəsizliyin menecmenti", "Turizmdə animasiyaların menecmenti" ixtisasları üzrə kadrların hazırlanması;

2. Tələbələrin xarici ölkələrdə təhsillərini davam etdirmək imkanı;

3. Tələbələrin iki illik nəzəri kurslardan sonra təcrübə keçməyə göndərilməsi;

4. Tələbələrin turizm firmaları yaratmağa həvəsləndirilməsi;

5. Tələbələrin dil hazırlıqlarına xüsusi diqqət yetirilməsi;

6. Məzunların turizm bazarının konyunkturasından baş çıxaran mütəxəssis kimi formalaşdırılması.

Eyni zamanda məzunların diplomdan sonrakı təhsillərinə də xüsusi diqqət yetirilməlidir. Ölkəmizdəki müxtəlif ali məktəblərdə və MEA-nın İnstitutlarında turizmlə bağlı mövzular üzrə elmi-tədqiqat işləri aparılır. Problem ondan ibarətdir ki, kordinasiya mərkəzi olmadığından tədqiqatçılar bir-birindən xəbərsiz eyni mövzular üzrə araşdırmalar aparırlar. Fikrimizcə yeni yaradılan Turizm İnstitutunda ixtisaslaşmış müdafiə şurası, eyni zamanda Mədəniyyət və Turizm Nazirliyinin nəzdində turizmin inkişaf problemləri ilə məşğul olan elmi-tədqiqat laboratoriyası yaradılmalı və turizmlə əlaqəli elmi-tədqiqat işlərinin mövzularının reyesteri aparılmalıdır.

***Cabir MƏMMƏDOV,***
***BDU-nun prfessoru,***
***Bahadur BİLALOV,***
***ADMİU-nun müəllimi,***
***tarix elmləri namizədi***

**Ədəbiyyat**

1. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı: Mütərcim, 2006, 280 s.
2. Квартальнов В.А. Туризм. М.: Финансы и статистика, 2000, 320 с.
3. Məmmədov C.A., Bilalov B.Ə. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları. Bakı: Mütərcim, 2004, 210 s.
4. Методология профессионального туристского образования. М.: Советский спорт, 2001, 200 с.
5. Ушаков Д.С. Технологии выездного туризма. Москва-Ростов на Дону: Март, 2005, 384 с.